# Bir gündə 3 bürünc medal

Avqustun 19-da XXXI Yay Olimpiya Oyunlarında ölkəmizin hesabına daha 3 medal yazılıb. Sevindirici haldır ki, sərbəst güləşdə ilk yarış günündə mübarizəyə qoşulan Hacı Əliyev və Cəbrayıl Həsənov, taekvondoda isə Milad Beiqi Harçeqani bürünc mükafata layiq görülüblər.

Son 6 gündə yunan-Roma və qadın güləşində pəhləvanlarımız ümumilikdə 4 medal (bir gümüş, üç bürünc) qazanıblar. İndi idmançılarımızdan hamı qızıl əyarlı mükafat gözləyir. Arzuların gerçəkləşəcəyinə ümid edirik. Əslində, hər iki pəhləvanımız qızıl medala real namizəd idmançılar sırasında göstərilirdi. Əlbəttə, bütün məsələlərə meydanda aydınlıq gəlir. Düzgün müdafiə mövqeyi seçən, taktikanı quran, fiziki hazırlığını nizamlamağı bacaran idmançılar 4 illiyin zirvə yarışında ən yüksək pillədə qərarlaşırlar.

Sərbəst güləşçilərin ilk yarış günündə Azərbaycana ilk medalı Hacı Əliyev qazandırıb. 57 kq çəki dərəcəsində yarışan təmsilçimiz mübarizəyə 1/8 finaldan başlayıb. İlk rəqibi cənubi koreyalı Yunsik Yun olub. İkiqat dünya çempionumuz Asiya Oyunlarının bürünc mükafatçısını xalçaya çıxmasına peşman edib. İlk hissəni 8:2 hesabı ilə öndə bitirən həmyerlimiz yekunda 12:2 hesablı qələbə qazanıb. Hacı 1/4 finalda Vladimir Xinçeqaşvili (Gürcüstan) ilə üz-üzə gəlib. Görüş gürcüstanlı idmançının xeyrinə başa çatıb- 5:3.







London-2012-nin finalçısı olan Xinçeqaşvili finala vəsiqə qazandığından Hacı üçüncülük üçün təsəlliverici görüşlərə qatılıb. Güləşçimiz təsəlliverici görüşlərin ikinci raundunda Nurislam Sanayevə (Qazaxıstan) qalib gəlib-10:8. Pəhləvanımız bürünc medal uğrunda bolqarıstanlı Vladimir Vladimirovla güləşib. Qarşılaşmanın gedişində geri düşən idmançımız sonradan təşəbbüsü ələ alıb. İkinci hissədə 5:4 hesabı ilə irəlidə olarkən rəqibinin kürəyini xalçaya vurmağı bacaran Hacı təmiz qələbə ilə bürünc medal qazanıb.

Görüşdən sonra jurnalistlərə açıqlamasında Hacı Əliyev iştirakçısı olduğu ilk Olimpiadada medal qazandığına görə özünü çox şanslı hiss etdiyini söyləyib: “Olimpiya oyunları elə bir yarışdır ki, burada güclü yox, şansı olan və ağıl işlədən qalib gəlir. Gürcü idmançıya uduzmağı heç gözləmirdim. Ancaq bəxt amili imkan vermədi. Əsas odur ki, medalsız qalmadıq. 12 kq çəki azaltmışam. Normalda çəkimi 61 kq-dək salaraq, yarışırdım. İndiki vəziyyət özü də böyük risk idi. Belə məcburiyyətlər yarananda problemlər, qayğılar da az olmur. Diqqəti döşəkdən savayı, çəkiyə də yönəltməli olursan. Deməzdim ki, yorulmuşdum, ya da çətinlik çəkirdim. 1/4 finalda son cəhd üçün vaxt çatmadı. Amma medalsız qayıtmıram”.

Qeyd edək ki, Hacı Əliyev 1991-ci il 21 aprel tarixində Naxçıvan şəhərində anadan olub. İlk dəfə beynəlxalq miqyaslı yarışlarda 2010-cu ildən iştirak etməyə başlayıb. 2014-cü və 2015-ci illərdə dünya çempionatının qızıl medalına layiq görülüb. Güləş tariximizin yeganə ikiqat dünya çempionudur. 2014-cü il Avropa çempionatının qızıl, ondan bir il sonra isə bürünc mükafatını qazanıb. 2013-cü ildə Kazanda (Rusiya) təşkil olunan Universiadanı 3-cü yerdə başa vurub. Ötən il isə tarixdə ilk dəfə paytaxtımızda keçirilən Avropa Oyunlarında bürünc medalla kifayətlənib.

*Ardı 7-ci səh.*



# Bir gündə 3 bürünc medal








Əvvəli 1-ci səh.

2015-ci il 29 iyun tarixində Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə Prezident İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilib.

72 kq çəki dərəcəsində yarışan digər bir güləşçimiz Cəbrayıl Həsənov da mübarizəyə 1/8 finaldan başlayıb. Avropa çempionumuz kolumbiyalı Karlos Arturo İzkierdo Mendesdən güclü olub - 10:0. 1/4 finalda Yakob Makaraşvili (Gürcüstan) ilə qarşılaşıb. C.Həsənov bu rəqibini də vaxtından əvvəl mübarizədən kənarlaşdırıb. İlk hissədə 11:0 hesabı ilə önə keçən həmyerlimiz yarımfinala vəsiqə qazanıb.

Cəbrayıl finala gedən yolda rusiyalı Aniuar Qeduyevlə güləşib. Görüşə daha fəal başlayan təmsilçimiz 4:0 hesabı ilə irəlidə olub. Lakin üstünlüyünü qoruya bilməyib. Yekunda rusiyalı 5:4 hesabı ilə qalib gələrək finala yüksəlib.

Cəbrayıl Həsənov bürünc medal uğrunda güləşdə özbəkistanlı Bexzad Abdurrahmanov ilə üz-üzə gəlib. Rəqibinə 9:7 hesabı ilə qalib gələn pəhləvanımız fəxri kürsünün üçüncü pilləsində qərarlaşıb.

Jurnalistlərlə söhbəti zamanı Cəbrayıl Həsənov deyib: "Bu, qatıldığım sayca ikinci olimpiadadır. Birincidə medalı, belə demək mümkündürsə, əldən qaçırdım. Ümumiyyətlə, burada hazırlıqla, güclə yanaşı, şans da az rol oynamır. Bu yarışın dünya və Avropa çempionatlarından əsas fərqi də bundadır. Bu yarışlara hər kəs son ümid yeri, parlayacağı an kimi baxır. 4:0 hesabı ilə qalib gəlirdim. Bir az özümə arxayın idim. Lakin hakimlər görüşü çox saxladılar və bir az soyudum, bir az həyəcandan, bir az boş dayanmaqdan yarış tonusumu itirdim. Hakimlər hesabı 5:4 etdilər, özü də onun xeyrinə. Rəqibim 3-4 dəqiqə istirahət etdi və psixoloji cəhətdən özünü toparladı. Məncə, Rövşən Bayramovun da məğlubiyyətində hakimlərin rolu çox oldu. Onlar rəqibə xəbərdarlıq verməli idilər. Lakin nədənsə güzəştə getdilər. İnşallah, çalışarıq bundan sonra daha yaxşı çıxış edək".

Cəbrayıl Həsənov 24 fevral 1990-cı ildə Astara rayonunda dünyaya gəlib. Uşaq yaşlarından idmanın sərbəst güləş növünə maraq göstərib. 2001-ci ildə Bakı şəhərindəki Respublika Olimpiya İdman Liseyinin 5-ci sinfinə qəbul olunub. Burada beynəlxalq idman ustası, əməkdar məşqçi Aslan Ağayevin rəhbərliyi altında sərbəst güləşlə məşğul olmağa başlayıb və eyni zamanda təhsilini davam etdirib. 2003-cü ildən 2008-ci ilə qədər yeniyetmələr və gənclər arasında Avropa və dünya birinciliklərinin mükafatçısı və qalibi olub. 2007-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olub. 2010-cu ildə həmin akademiyanı sərbəst güləş ixtisası üzrə bitirib. 2009-cu ildə Litvanın Vilnüs şəhərində keçirilən Avropa çempionatında gümüş medal qazanıb.

2010-cu ildə Bakıda keçirilən Avropa çempionatının qızıl mükafatçısı olub. Həmin il Rusiyanın paytaxtı Moskvada dünya çempionatında bürünc medala layiq görülüb. 2011-ci ildə Almaniyada ikiqat Avropa çempionu adını qazanıb. Həmin ilin sentyabr ayında Türkiyənin İstanbul şəhərində dünya çempionatının bürünc mükafatçısı olub.

2014-cü və 2015-ci illərdə "Qızıl Qran-pri" turnirlərinin qalibi adını qazanmış pəhləvanımız ötən il ilk Avropa Oyunlarında bürünc medal alıb. Cari ildə isə qitə birinciliyini və Avropa təsnifat turnirini ilk pillədə başa vurub. 2015-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb.

Taekvondoçularımız da Rioda onlara göstərilən etimadı doğrultmaqda davam edirlər. Patimat Abakarovadan sonra Milad Beiqi Harçeqani də bürünc medalla xalqımızı sevindirib.

Avropa çempionumuz Milad Harçeqani mübarizəyə 1/8 finaldan start verib. Rəqib malili İsmael Koulibali olub. Harçeqani son 2 dünya çempionatının finalçısı ilə döyüşü qələbə ilə başa vurub. İlk hissədən üstünlüyü ələ alan təmsilçimiz afrikalını 13:5 hesabı ilə məğlub edib. Harçeqani 1/4 finalda Mehdi Xodabaxşi (İran) ilə üz-üzə gəlib. Bütün raundlarda rəqibindən üstün olan təmsilçimiz 17:5 hesablı qələbə ilə adını yarımfinala yazdırıb.

Milad finala çıxmaq üçün böyük britaniyalı Lutalo Muhammed ilə mübarizə aparıb. Gərgin mübarizə şəraitində keçən döyüş təmsilçimizin məğlubiyyəti ilə yekunlaşıb - 12:7.

Milad Beiqi Harçeqani bürünc medal uğrunda mübarizəsini davam etdirib. Onun rəqibi polşalı Pyotr Pazinski olub. Döyüşə fəal başlayan Milad görüşü 12:0 hesablı təmiz qələbə ilə başa vuraraq bürünc medal qazanıb.

Görüşdən sonra mətbuata verdiyi açıqlamasında Rioya qızıl medal üçün gəldiyini, lakin təcrübənin az olmasının bu arzunun gerçəkləşməsində problem yaratdığını vurğulayıb: "Medal qazandığım üçün şadam. İstərdim qızıl medal qazanım. Fiziki cəhətdən hazır idim. Yəqin, təcrübəm az oldu, səhvə yol verdim. Tam isinməmiş döyüşə başladım. Bəlkə də qızıl medal mənim qismətim deyilmiş".

M.B.Harçeqani 1991-ci ilin mart ayının 3-də İran İslam Respublikasının İsfahan şəhərində anadan olub. 2000-ci ildən bu idman növü ilə məşğul olur. 2015-ci ildən Azərbaycan milli taekvondo komandasının üzvüdür. Ötən il Bakıda keçirilən ilk Avropa Oyunlarının qızıl medalına sahib olub. I Avropa Oyunlarında qazanılmış yüksək nailiyyətlərə görə Prezident İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülüb. XXXI Yay Olimpiya Oyunlarına lisenziyanı cari ilin yanvarında İstanbulda keçirilmiş Avropa Olimpiya təsnifat turnirində qazanıb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***